

**ƏLİ ƏSƏDOV,**
Azərbaycan Respublikası
Prezidentinin köməkçisi

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASININ TƏNTƏNƏSİ

Neft bəşəriyyətin həyatında misilsiz rol oynayan ən mühüm təbii sərvətlərdən biridir. Onun kəşf olunması, istehsalı və geniş istifadəsi dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının sürətli inkişafına güclü təkan verərək, insan həyatında köklü dəyişikliyin yaranmasına səbəb olmuşdur.

XX əsr mühüm hadisələrlə zəngin olmuşdur. İnqilablar, çevrilişlər, müharibələr, təbii fəlakətlər və sairə xalqların həyatında silinməz izlər qoymuşdur. Lakin qətiyyətlə deyə bilərik ki, müasir dövrü səciyyələndirən, onun simasını müəyyən edən başlıca cəhət elmi-texniki tərəqqinin misli görünməmiş geniş vüsət alması olmuşdur. Demək olar ki, əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində isə məhz neft durur.

Neftin dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin təsirli amillərindən birinə, mühüm geosiyasi və geostrateji faktora çevirdi. Neft mənbələri, neft kəmərləri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini göstərir.

Artıq on ildən artıqdır ki, müstəqillik yolu ilə inamla addımlayan Azərbaycan Respublikası dünya birliyinin bərabərhüquqlu üzvü olub özünün suverenlik hüquqlarını tam şəkildə həyata keçirir. Bu gün Azərbaycan dövləti xalqımızın çoxəsrlik azadlıq ideallarına, iradəsinə uyğun olaraq müstəqil siyasi, iqtisadi xətt yeridir.

Dərin mənəvi, mədəni, elmi, iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər sırasında neft xüsusi yer tutur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müdriklik və uzaqgörənliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı siyasət nəticəsində bu gün Azərbaycan nefti onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsininə yönəldilmişdir.

Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu

imkanı reallığa çevirən isə Heydər Əliyev fenomenidir. Heydər Əliyev 1969-cu ildən – respublikamıza başçılıq etdiyi dövrdən bu günə kimi neft sənayesinin inkişafı naminə əvəzsiz xidmətlər göstərib. Əldə edilmiş bütün uğurlar Azərbaycana rəhbərlik edən cənab Heydər Əliyevin adı ilə sıx bağlıdır. Qətiyyətlə demək olar ki, bu dövr Azərbaycan neft sənayesinin inkişaf salnaməsinin dirçəliş mərhələsi kimi tanınmışdır. Məhz bu zaman kəsiyində respublikada yüksək səviyyəli kvalifikasiyaya malik olan qüdrətli elmi-texniki potensial yaradılmışdır.

Ölkəmizin ən böyük nailiyyətlərindən biri dəniz neft-qaz yataqlarının kəşfi və işlənməsidir. 1970-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərin təşkili və həyata keçirilməsi də Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu nəhəng işlər neftçilərimizə dənizin daha dərin sahələrini mənimsəmək imkanı vermişdir.

Respublika rəhbərliyi tərəfindən qısa müddət ərzində görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmləndirilmiş və onun çoxşahəli infrastrukturu yaradılmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmişdir.

Cənab Heydər Əliyevin xüsusi diqqəti sayəsində neft donanması əsas inkişaf dövrünə qədəm qoydu və bu gün "Xəzərdənizneftdonanması" geniş imkanlara malik, dünyanın ən böyük neft donanmalarından birinə çevrilmişdir.

Bir-birinin ardınca Xəzər akvatoriyasında Günəşli, Çıraq, Azəri və Kəpəz kimi yeni iri neft və qaz yataqları kəşf edilmişdir. Təkcə Günəşli yatağı sənaye işlənməsinə daxil edildikdən sonra Azərbaycanda neft hasilatının əsas həcmini təmin etdi.

Bununla yanaşı, neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur. Belə ki, o zaman Bakının neft maşınqayırma zavodlarında respublikanın və bütün İttifaqın neft-qazçıxarma sənayesi üçün yüzlərlə yeni tipli maşınlar, avadanlıqlar, aparatlar və cihazlar istehsal olunurdu.

Bilavasitə cənab Heydər Əliyevin titanik əməyi nəticəsində 1979-cu ildə Sahil qəsəbəsində Sovet İttifaqında ən böyük zavodlardan sayılan dənizdə neft çıxarmaq üçün istehsal gücü ildə 60 min ton metalkonstruksiya olan üzən dərin özülləri istehsal edən zavod tikilmiş, həmin zavodun fəhlə və qulluqçuları üçün qəsəbə və sosial obyektlər salınmışdır.

Lakin tarixin belə bir təəssüf doğuran gerçəkliyi də var ki, bəzi neft çıxaran ölkələr bu qiymətli sərvətdən öz xalqlarının firavanlığı və tərəqqisi üçün istifadə etmək imkanından uzun illər məhrum olmuş, böyük dövlətlərin güclü təzyiqi nəticəsində müstəqil siyasət yeritmək imkanını itirmişlər. Həmin ölkələri öz təbii sərvətlərinin tam sahibi olmaq uğrunda həmişə mübarizə aparmış və öz məqsədlərinin həyata keçirilməsinə bu və ya digər dərəcədə nail olmuşlar.

Azərbaycan xalqının da azadlıq və müstəqillik uğrunda mübarizəsi heç də asan olmamışdır.

1991-ci il oktyabr ayının 18-də müstəqillik aktının qəbul olunmasından sonra respublikamız bir çox problemlərlə üzləşdi. Xalqımız o dövrün səriştəsiz, başıpozuq hakimiyyət dəllallarının fəaliyyətsizliyi nəticəsində uçurum qarşısında dayanmışdı. A.Mütəllibov, Müsavat-AXCP iqtidarı dövründə həm sosial-iqtisadi, həm də ictimai-siyasi cəhətdən atılan uğursuz addımlar eyni zamanda Azərbaycanın beynəlxalq aləmində nüfuzuna da mənfi təsir göstərirdi.



Uzunmüddətli müharibəyə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi, 1990-cı illərin əvvəllərində siyasi rəhbərliyin və təsərrüfat başçılarının acizliyi əsl hərcmərclik törətmişdir. İstehsal sahələri və pillələri arasında əlaqələr pozulmuş, təcrübəli kadrlar itirilmişdi, hər yerdə laqeydlik, özbaşınalıq hökm sürürdü, uzun illər ərzində yaradılmış əsas fondlar və istehsal vasitələri dağıdılaraq talan edilmişdi.

Respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfra enməsi xalq təsərrüfatının bir çox sahələri kimi, neft və qaz sənayesini də iflic vəziyyətinə gətirib çıxartmışdı. İllərlə mövcud olan və səlis işləyən istehsalat əlaqələri pozulmuş, sərmayə qoyuluşu ixtisar olunmuş, kəşfiyyat və istismar qazmasının həcmi kəskin surətdə azalmış, nəticə etibarilə isə, neft və qazın hasilatı aşağı düşmüşdü. Maliyyə vəziyyətində, əsas fondların və neft avadanlıqlarının yeniləşdirilməsində böhran son dərəcə dərinləşmişdi. Həmin böhran əslində həm iqtisadi, həm siyasi, həm hərbi, həm də o dövrdəki iqtidara etimad böhranı idi.

Belə ki, 1987-ci ildən etibarən hasilatın illik aşağı düşməsi tempi neft üzrə 7,1%, qaz üzrə isə 13,5% təşkil etmiş, kəşfiyyat qazmasının həcmləri 17 dəfə aşağı düşmüşdür, Yalnız 1993-cü ildən etibarən xalqın iradəsi, çağırışı və təkidi ilə yenidən hakimiyyətə qayıdan möhtərəm Heydər Əliyevin gecə-gündüz gərgin iş rejimində yorulmadan çalışması respublikada ictimai sabitlik yaranması üçün atılan addımların nəticəsində Azərbaycanın siyasi və iqtisadi həyatında mühüm dönüşlərin başlanğıcı oldu. Ölkə rəhbərinin apardığı ardıcıl siyasi kurs, bir çox dövlətlərlə yaratdığı isti münasibət xarici ölkələrin, beynəlxalq aləmin ölkəmizlə qarşılıqlı əlaqələr qurmasına gətirib çıxartmışdır. Hüquqi, dünyəvi dövlət yaratmaq, iqtisadi islahatlar aparmaq və bazar iqtisadiyyatının prinsiplərini tətbiq etmək, xalqın azad şəkildə maddi və mənəvi cəhətdən təmin olunmasını fəaliyyətinin əsas istiqaməti seçən Möhtərəm Heydər Əliyev iqtisadiyyatımızın dirçəldilməsi sahəsində böyük işlər görmüşdü.

Əldə edilən çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər arasında Azərbaycanın neft və qaz ehtiyatlarının, əlverişli coğrafi mövqeyinin üstünlüklərindən istifadə edilməsinə yönəldilmiş Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1994-cü ildə yaratdığı və ötən zaman ərzində uğurla gerçəkləşən neft strategiyası və konsepsiyası xüsusi yer tutur.

Bu barədə Prezident Heydər Əliyev belə demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Neft sənayesində bu gün ən böyük nailiyyətlərdən biri odur ki, Prezident Heydər Əliyevin vaxtında gördüyü qəti tədbirlərin nəticəsində neft-qaz təsərrüfatının dağılmasının qarşısı alınmış, bu sahədə canlanma baş vermiş və Azərbaycanda hasilatının aşağı düşməsi tempi dayandırıldı. Belə ki, 1998-1999-cu illərdə vəziyyət stabilləşmiş, neft və qaz hasilatının aşağı düşməsi tempi tamamilə dayandırılmışdır.

İldən-ilə artan səmərəli tədbirlər nəticəsində neft və qaz yataqlarında qazma işləri bərpa edilmiş, istismar quyularının qazılmasının həcmi artırılmış, geoloji-texnoloji tədbirlər keçirilmiş, quyuların sabit iş rejimini təmin etmək məqsədi ilə mövcud kompressor stansiyaları təmir olunmuş və yenidənqurma işləri aparılmışdır, yeni istehsalat obyektləri verilmiş və bununla neft sənayesinin infrastrukturu xeyli möhkəmləndirilmişdir. Son onillikdə yüzlərlə yeni quyu mənimsənilmiş və yaxud fəaliyyətsiz fonddan istismara qaytarılmış, optimal iş rejimini təmin etmək üçün minlərlə texniki və geoloji tədbirlər həyata keçirilmişdir.

Heydər Əliyevin diqqət və qayğısı sayəsində qısa bir zamanda neft emalı sahəsində də böyük müsbət dəyişikliklər əldə olundu. "Azərneftyağ" və "Azərneftyanacaq" zavodlarında xarici şirkətlərin köməyi ilə yüksək məhsuldarlığa malik olan ən müasir texnologiyalar tətbiq edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının tarixinə qızıl hərflərlə həkk olunmuş 20 sentyabr 1994-cü il bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır.

Məhz bu tarixdə möhtəşəm "Gülüstan" sarayında Qərbin iri neft şirkətləri ilə bağlanmış, sonradan isə haqlı olaraq "Əsrin müqaviləsi" kimi adlandırılmış Saziş respublikamızın neft epopeyasının şanlı səhfəsini açdı.

"Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşməsi Möhtərəm Heydər Əliyev tərəfindən işlənib hazırlanmış iqtisadi inkişaf konsepsiyasının və neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Lakin, o zaman, müqavilə imzalandıqdan sonra Azərbaycan yeni sınaqlarla qarşılaşdı. Müqaviləyə imza atıldıqdan cəmi bir neçə gün sonra Azərbaycanda dövlət çevrilişinə cəhd edildi. Gənc Azərbaycan dövləti cinayətkarlara layiqli cavab verə bildi. Dövlət çevrilişi cəhdi yatırıldı və cinayətkarlar uzun müddət Azərbaycandan kənarda gizlənsələr də, Azərbaycana qaytarıldılar, layiqli cəzalarını aldılar.

Azərbaycanın məruz qaldığı növbəti bəla terrorçu qüvvələrin baş qaldırması oldu. Bir sıra terror aktları həyata keçirildi və bunun nəticəsində parlament sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirildilər. 1995-ci ilin martında xarici qüvvələr və daxili irtica birləşərək ikinci dəfə dövlət çevrilişinə cəhd etdilər. Onların məqsədi ölkə Prezidentini fiziki cəhətdən məhv etmək və hakimiyyəti ələ keçirmək idi. Azərbaycan bu dəfə də öz dövlətçiliyini layiqincə müdafiə edə bildi. Qiyamçıların bir qismi tutuldu, bir qismi məhv edildi, bir qismi isə indiyədək xarici ölkələrdə sığınacaq taparaq, Azərbaycana qarşı yeni təxribatlar hazırlayaraq, hələ də ədalət məhkəməsindən yayınırlar. Lakin, bizi istəməyənlər heç bir şeyə nail ola bilmədilər.



İlkin neft layihəsi üzrə Azəri-Çıraq-Günəşli dəniz yataqlarında nəzərdə tutulan bütün işlər yerinə yetirilmiş, bu işlər çərçivəsində neft sənayesinin infrastrukturu xeyli müasirləşdirilmişdir. "Çıraq-1" dəniz platformasının tikintisi yekunlaşdırıldı və neft hasil edən ilk quyu qazıldı, platformadan Səngəçaldakı sahil terminalınadək və Neft Daşlarındakı kompressor stansiyasınadək sualtı boru kəmərləri çəkildi. Səngəçalda sahil terminalı tikildi, Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabr ayında bu neft kəməri istismara verildi. "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verildi. Sanki bu qurğuların adı da rəmzi məna kəsb edir. Bu bir daha təsdiq edir ki, XXI əsrə addımlayan Azərbaycan öz iqtisadiyyatının dirçəlişində öz istiqlalını, öz müstəqilliyini və öz milli köklərini, milli qaynaqlarını uca tutur. Hal-hazırda min ton su qatında kəşfiyyat işləri aparmağa qadir olan daha bir yeni dəniz qazma qurğusunun inşasına başlamaq üçün tədbirlər görülür.

1997-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə "Çıraq-1" platformasında ilk neft quyusunun istismara verilməsinin təntənəli mərasimi oldu. Hazırda burada sutkada 19 min tona yaxın neft və 3,5 milyon kub metr qaz hasil edilir.

1999-cu ilin axırından isə Azərbaycan artıq onun payına düşən mənfəət nefti – ilk "neft dollarlarını" almağa başlayıb. Azəri-Çıraq-Günəşli Sazişinin şərtlərinə əsasən, Azərbaycanın payına duşən 581 milyon ABŞ dolları dəyərində mənfəət xam nefti satılmışdır. Qeyd etmək lazımdır ki, həmin Sazişə görə istismar quyularından neftlə birgə çıxarılan səmt qazı bütövlüklə, dəyəri ödənilmədən respublikaya verilir.

1999-cu il aprelin 17-də müstəqil Azərbaycan tarixində fövqəladə əhəmiyyətli hadisə baş verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə uzunluğu 850 kilometr və illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Çıraq yatağından hasil olunan neft indi artıq öz - "Azəri Layt" adı altında Supsa limanından dünya bazarlarına ixrac edilməsinə başlandı. İlk dəfə olaraq Azərbaycan nefti şimala yox, qərb istiqamətində axmağa başladı.

Bakı-Supsa ixrac neft kəməri layihəsinin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təkidi ilə baş vermişdir. Bu layihənin əleyhdarları deyirdilər ki, əgər Bakı-Novorossiysk neft kəməri "Çıraq-1" platformasından istənilən həcmdə nefti nəql etmək imkanına malikdirsə, əlavə neft kəməri nəyə lazımdır, bu neft kəmərinə yüz milyonlarla dollar sərf etməyə ehtiyac varmı?

Lakin real həyat növbəti dəfə Azərbaycan Prezidentinin uzaqgörənliyini, onun hazırladığı siyasi, iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurulmuş çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərdi.

Hazırda xarici neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. Bütün Sazişlər Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin bilavasitə iştirakı

ilə, nəinki tək Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları - Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında imzalanmışdır.

Nəticədə, Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur ki, bu da respublikamızın gələcək inkişafına əsl qarantdır.

Azərbaycanın imzaladığı sazişlərin həyata keçirilməsi nəticəsində respublikamızda xam neftin illik ixrac potensialı 2010-2015-ci illər üçün ən azı 50-60 milyon ton təşkil edəcəkdir və nəticədə Azərbaycan çıxarılan neftin həcminə görə İngiltərə, Norveç kimi ölkələrlə eyni səviyyədə olmasına və dünyanın ən inkişaf etmiş ölkələri sırasında yerini tutacaqdır.

Bu amil respublikamız üçün həm iqtisadi, həm siyasi baxımdan böyük əhəmiyyət kəsb edir, dünya iqtisadiyyat birliyinə inteqrasiyasını daha da sürətləndirmək və xarici sərmayələrin cəlb olunmasına yeni imkanlar yaradır. Xüsusilə qeyd olunmalıdır ki, imzalanmış neft müqavilələri Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan sonra Qanun qüvvəsinə minir.

Artıq heç kimə sirr deyil ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin neft strategiyasının uğurları ilk növbədə Azərbaycanın bütün neft şirkətləri üçün açıq olması ilə bağlıdır. Həqiqətən də, respublikamız müvafiq şərtlər çərçivəsində hər bir neft şirkəti ilə əməkdaşlıq etməyə hazırdır.

Sərmayəçilərlə münasibətdə ayrı-seçkilik qoyulmaması, qarşılıqlı əlaqələrimizin düzgünlüyü, təmizliyi, ədalətli olması Azərbaycan iqtisadiyyatının başqa sahələrinə də sərmayə cəlb olunmasına yardım edir, eləcə də ölkələrimiz arasında siyasi, mədəni əməkdaşlığın genişlənməsinə, Azərbaycana, Azərbaycan Hökumətinin siyasi və iqtisadi xəttinə etimadın artmasına, müstəqil Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir.

Ölkəmizin neft strategiyasının ən əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən ibarətdir.

Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafının, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli buraxılış imkanı ildə 50 milyon ton neft, uzunluğu 1730 kilometr olan yeni - Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir.

Yalnız Respublika Prezidentinin dünyada yüksək nüfuzu, gündəlik diqqəti və rəhbərliyi nəticəsində, yüksək səviyyələrdə Azərbaycanın maraqlarını qoruyub saxlaması və mütamadi olaraq müxtəlif dövlət başçıları və beynəlxalq qurumları ilə danışıqları nəticəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması qısa bir müddətə çox vacib və əhəmiyyətli Hökumətlərarası Sazişlər imzalandı.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısı gedişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin



ərazilәri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə" dair Saziş imzalamışlar.

Eyni vaxtda Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının Prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsini" imzalamışlar.

Adı çəkilən sənədlərin Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu sənədlər toplusunu ratifikasiya olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə təqdim etmiş və 2000-ci il 27 may tarixində "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Sazişin və həmin Sazişə əlavə edilmiş sənədlərin, İstanbul Bəyannaməsinin və xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu imzalamışdır.

2002-ci il 18 sentyabr tarixində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Səngəçal teriminalında Respublikamızın müstəqilliyinin atributlarından biri olacaq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin təməl daşı qoyuldu. Bununla da, Azərbaycanın mənafelərinin üzünmüddətli təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, Xəzəryanı regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən növbəti mühüm addım atılmışdır. Məqsəd – dünyada ən iri nəqliyyat layihərindən olan Əsas İxrac Boru Kəmərinin 2005-ci ilədək tikilib başa çatdırılması və Xəzər nefti ilə doldurulmuş ilk tankerin yola salınmasıdır.

Respublikamızda, nəinki neft hasilatının kəskin sürətlə artırılmasına, eyni zamanda qaz ehtiyatlarının və yaxın zamanda qaz hasilatının artırılması üçün əsaslar yaranıbdır. Bu səpgidə aparılan işlərin sırasında ən mühüm hadisə Şahdəniz blokunda zəngin qaz-kondensat yatağının açılması oldu. Şahdəniz yatağının qəti dəyərləndirilməsi sübut etmişdir ki, ehtiyatların potensialı 1 trilyon kub metrdən artıqdır və, bununla, Şahdənizin dünyamiqyaslı yataq olduğu təsdiq edildi.

Şahdənizdə axtarış-kəşfiyyat işlərinin nəticələri, nəinki tək Azərbaycan üçün, həm də bütün regionun energetika kompleksinin strukturunun inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Burada hasil ediləcək qaz, nəinki tək Türkiyəyə, oradan Yunanıstan və Avropanın digər ölkələrinə ixrac ediləcək.

Bununla əlaqədar 12 mart 2001-ci il tarixində Türkiyənin Ankara şəhərində Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Azərbaycanın Təbii Qazının Türkiyə Respublikasına Tədarük Edilməsi haqqında Saziş imzalandı və

cənab Heydər Əliyev və Türkiyə Prezidenti cənab Əhməd Necdət Sezər tərəfindən təsdiq olundu.

Artıq bu ilin mart ayında Şahdəniz layihəsi üzrə işlərin sanksiyası veriləcək, və hər iki tarixi layihə - Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum - paralel olaraq irəliləyəcək.

Neft və qaz kontraktları üzrə aparılan işlər artıq keyfiyyətcə yeni, həlledici mərhələyə daxil olur. Bu, xüsusilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yatağının tammiqyaslı işlənilməsi, "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəmərinin, habelə "Şahdəniz" kimi dünya miqyaslı qaz yatağının işlənilməsi və bu yataqdan təbii qazın ixrac boru kəmərinin tikintisi və istismara verilməsi layihələri ilə bağlı məsələlərə aiddir. Yaxın illər ərzində təkcə bu dörd layihənin həyata keçirilməsi üçün 10-12 milyard ABŞ dolları həcmində investisiya gətiriləcək, nəticədə neft və qaz hasilatı sürətlə artacaq və dünya bazarlarına ixrac olunacaqdır. Dünya neft nəhənglərinin liderlərindən sayılan Bi-Pi şirkəti Azərbaycanı prioritet istiqamət kimi qiymətləndirərək öz tarixində ilk dəfə olaraq belə böyük məbləğlərdə sərmayə qoyuluşu edir.

İnkişaf edən proseslərdə ən mühüm amillərdən biri - Şərq-Qərb enerji dəhlizi ideyasının gerçəkliyə çevrilməsidir. Belə ki, Heydər Əliyevin siyasi kursunun düzgünlüyü bir daha fevralın 25-də Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransda sübut olundu. Bu konfransıda siyasət qrossmeysterı cənab Heydər Əliyevin proqram çıxışı Amerika cəmiyyətində geniş rezonansa malik oldu. Bunun məntiqli nəticəsi olaraq, ABŞ Prezidenti cənab Corc Buş birmənalı bildirdi ki, ABŞ Şərq-Qərb enerji dəhlizi ideyasını tam şəkildə dəstəkdəyir və bu işdə Azərbaycanın rolunu yüksək qiymətləndirir.

Bir sözlə, Prezident Heydər Əliyev qeyd etdiyi kimi, Azərbaycanın yeni dövlət neft strategiyası və Azərbaycan neft sənayesinin yeni erası başlayıbdır.

Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair Sazişlərin həyata keçirilməsindən Azərbaycan Respublikasının əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli Fərmanına uyğun olaraq, Dövlət Neft Fondu yaradılmışdır. Hazırda Dövlət Neft Fondunda 720 milyon ABŞ dollarından artıq vəsait yığılmışdır.

Bu Fond iqtisadiyyatımızın qeyri-neft sektorunu inkişaf etdirməyə imkan verəcək, vətəndaşlarımızın güzaranının daha yüksək səviyyəyə qaldırılmasına, irihəcmli valyuta ehtiyatlarının gələcək nəsilləri üçün saxlamağa imkan verəcək. Buna görə Neft Fondu tam şəffafdır və birbaşa Azərbaycan Respublikası Prezidentinin nəzarətindədir.

Belə ki, qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün cənab Heydər Əliyevin Fərmanları ilə son iki il ərzində 75 milyon ABŞ dolları ayrılmışdır. Bu bir daha sübut edir ki, Neft Fondu xalqın ən zəruri ehtiyaclarının həllinə yönəldilmişdir.



Azərbaycan neft strategiyasının əsas elementlərdən biri müxtəlif ölkələrlə əməkdaşlığın mümkün dərəcədə genişləndirilməsi, əlaqələrin maksimum qlobalizasiyasıdır.

Respublikada yaradılmış istehsal potensialı ən yaxın gələcəkdə neft və qaz hasilatının artırılmasının çox böyük perspektivləri, ölkənin əlverişli siyasi vəziyyəti Xəzər bölgəsində Azərbaycanın neft biznesi mərkəzi kimi mövqelərinin möhkəmlənməsi üçün real amillərdir.

Fərəhedici haldır ki, cənab Heydər Əliyevin titanik əməyi nəticəsində Xəzərin statusu ilə bağlı danışıqlarda bütün maraqlı tərəflərin mövqeləri yaxınlaşmaq üzrədir.

1994-cü ildən başlayaraq hər il Bakıda artıq gözəl ənənəyə çevrilmiş "Xəzər neft, qaz, neftayırma və neft kimyası" Beynəlxalq sərgi və konfransı keçirilir. Beynəlxalq neft-qaz sərgiləri, konfransları içərisində - Hyuston, Aberdin, Stavanqer şəhərləri ilə bərabər, artıq Azərbaycanın paytaxtı - Bakıda keçirilən "Xəzərneftqaz" sərgisi dünyada özünəməxsus yerini tutmuşdur və bu sahədə çalışan minlərlə mütəxəssislər və iş adamlarının beynəlxalq görüş yerinə çevrilmişdir.

Azərbaycanın yeni neft-qaz konsepsiyasının gerçəkləşməsi yolunda böyük işlər görülmüşdür və artıq Azərbaycan XXI əsrin əvvəlində daha sürətlə dünya iqtisadiyyatına qovuşmasında addımlarını atan bir ölkə kimi tarixi rolunu möhkəmləndirir.

Bu məqsədlə neft-qaz sektorunun dövlət idarəetməsində köklü iqtisadi islahatların aparılması daima respublika rəhbərliyinin nəzarətindədir. Burada prinsipcə yeni qurum olan Yanacaq-energetika nazirliyinin yaradılması, Dövlət neft şirkətinin strukturunun təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin son qərarları xüsusi diqqətə layiqdir.

Beləliklə, 1994-cü il sentyabrın 20-də imzalanmış və müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks edən ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu və onun praktiki nəticələri göz qabağındadır. Həmin tarixdən başlayaraq, görülən işlər bugünkü və gələcək nəsillərə xidmət edir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli Fərmanına əsasən hər il sentyabrın 20-si "Neftçilər günü" peşə bayramı kimi qeyd olunması qərara alınmışdır.

Dunya miqyaslı siyasətçi cənab Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları və yolları haqqında ensiklopedik biliyə malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda, onun həqiqi rəhbəri və bilavasitə əsas icraçısı olmaq imkan verdi.

Bu gün tam qətiyyətlə demək olar ki, Heydər Əliyevin milli maraqlara söykənən neft konsepsiyası, nəinki Azərbaycanın XXI əsrdəki inkişafının əsasını qoydu, həm də Xəzər regionundakı zəngin karbohidrogen potensialını hərəkətə

gətirərək, yeni inkişaf mərhələsinə yol açdı və bütövlüklə, regionun ən böyük enerji mərkəzlərindən birinə çevrilməsində həlledici qüvvə rolunu oynadı.

Hətta müxalifəti Azərbaycanın xarici düşmənləri ilə əl-ələ verib bu danılmaz uğurları qaralamaq məqsədilə bir mövqedən çıxış etməsi mövcud iqtidara, Heydər Əliyevə qarşı müxalifətçilik deyil, bütün Azərbaycan xalqına, millətimizin gələcəyinə düşmənçilikdir.

Heydər Əliyevin Azərbaycan xalqı və müstəqil dövlətimiz naminə gördüyü işləri təkcə sadalamaq üçün bir məna dolu ömür gərək olar. Son otuz ildə ölkəmizdə gedən vüsətli quruculuq işləri, yeni tikilən fabrik və zavodlar, kənd və qəsəbələr, memarlıq abidələri, mədəni, mənəvi, elmi və yaradıcılıq sahəsində qazanılan nailiyyətlər, saysız-hesabsız xeyirxah əməllər, ən nəhayət, müstəqilliyimizin dönməz xarakter alması və Azərbaycanın Avropa Şurasına qəbulu Vətənimizin dahi və sədaqətli oğlu Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri möhtərəm Heydər Əlirza oğlu Əliyev cənablarının zəhmətinin bəhrəsidir və onun adı ilə qırılmaz surətdə bağlıdır. Azərbaycanın müstəqilliyi isə – respublikamızın yorulmaz arxitektoru, qurucusu Heydər Əliyevin şah əsəridir. Bu gün də, Azərbaycanın Avropa Şurasına seçildiyindən cəmi iki il sonra, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Olimpiya Komitəsinin prezidenti, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti cənab İlham Heydər oğlu Əliyevin Avropa Şurasının Parlament Assambleyasının vitse-prezidenti və büro üzvü kimi mötəbər və şərəfli vəzifələrə seçilməsi bir daha Azərbaycanın tutduğu inkişaf yolunun düzgünlüyünü sübut edir, sevimli prezidentimiz Heydər Əliyevin apardığı müdrik daxili və xarici siyasətin parlaq qələbəsini bariz şəkildə göstərir.